Azerbaijanian Journal of Economics and Social Studies

Number 2, Volume 1, 2015

# KƏND TƏSƏRRÜFATINDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFINA TƏSIR EDƏN AMİLLƏR

***Əlibəyov Nemət Vəlibəy oğlu***
*Az.ETKTİ və Tİ, i.ü.f.d.*

**Xülasə.** Məqalədə torpaq islahatı nəticəsində kənd təsərrüfatında formalaşmış təsərrüfat subyektlərinin yerinə yetirdikləri funksiyalar nəzəri və praktiki baxımdan geniş təhlil olunaraq ailə-kəndli təsərrüfatlarının sahibkarlıq fəaliyyəti subyektləri sırasına daxil olunması və hal-hazırda kənd təsərrüfatında istehsalçı təsərrüfatlar kateqoriyasına daxil olan ev təsərrüfatlarının istehlakçı təsərrüfatlar tipinə aid olunması, əvəzində isə yardımçı təsərrüfatların istehsalçı təsərrüfatlar sırasında uçota alınması əsaslandırılır.

**Açar sözlər:** kənd təsərrüfatı, fərdi sahibkarlar, ailə-kəndli təsərrüfatı, ev təsərrüfatı, yardımçı təsərrüfatlar.

Azərbaycan Respublikasında 1995-1998-ci illərdə Dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı çərçivəsində aqrar sahədə böyük uğurla həyata keçirilmiş islahatların nəticəsində sovetlər dövründə müəyyən tapşırıqların icrası ilə məşğul olan fəaliyyət qabiliyyəti kəndlilər kənd təsərrüfatı sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün az və ya çox istehsal faktorlarının (torpaq, əmək, kapital) hamısına malik olmuşdur. Sahibkarlıq bacarığı amilinə gəldikdə isə qeyd etmək lazımdır ki, digər istehsal amillərini əsas məqsədin reallaşmasına səfərbər etməklə səmərəli təsərrüfat-maliyyə fəaliyyəti həyata keçirməyi xarakterizə edən bu amil özünü sahibkarlıq fəaliyyəti göstərməkdə büruzə verməli idi.

Kənd təsərrüfatında sahibkarlar təbəqəsinin formalaşması və sahibkarlıq fəaliyyətinin sürətli inkişafını təmin etmək məqsədilə 1991-2000-ci illərdə güclü qanunvericilik bazası yaradılmış və sonrakı illərdə bu baza bir qədər də təkmilləşdirilmişdir. Ölkədə siyasi sabitlik təmin olunmuş və bütün sahələrdə "Sahibkarlıq fəaliyyəti" haqqında Azərbaycan Respublikası Qanununda qeyd olunduğu kimi «Dövlət sahibkarlıq fəaliyyətini qanunvericilik, inzibatı-hüquq, büdcə, vergi və pul-kredit sistemləri vasitəsi ilə tənzimləyir, maddi-texniki, maliyyə, əmək, informasiya və təbii ehtiyatlardan istifadə sahəsində mülkiyyət və təşkilati-hüquqi imtiyazlara və qeyri-bərabərliyə yol vermir» (1). Bütün bunlar belə deməyə əsas verir ki, digər sahələrlə müqayisədə, aqrar sahədə sahibkarlıq fəaliyyəti daha üstün inkişaf etməli idi. Lakin araşdırmalar bunun tam əksini göstərir.

Dövlət Statistika Komitəsinin məlumatlarından aydın olur ki, 2009-cu ilin əvvəlinə respublikada 196790 kiçik sahibkarlıq subyekti, o cümlədən 182785 fiziki şəxs statuslu fərdi sahibkar mövcud olmuşdur. Maddi istehsal sahələrində mövcud olmuş kiçik sahibkarlıq subyektlərinin müqayisəli təhlilindən aydın olur ki, kiçik sahibkarlıq subyektlərinin 4040-ı (ümumi sayın 2%-i) kənd təsərrüfatı, ovçuluq, meşəçilik və balıqçılıq sahələrində, 4777-i (ümumi sayın 2,4%-i) sənayedədir. 2005-2009-cu illərdə respublika üzrə kiçik sahibkarlıq subyektlərinin sayı 18250 vahid (9,3%), o cümlədən, fiziki şəxslər, fərdi sahibkarlar 16227 vahid (8,9%) artdığı halda,

sənayedə bu göstəricilər uyğun olaraq, 1107 ədəd (23,2%) və 985 ədəd (35,1%) artmış, kənd təsərrüfatı, ovçuluq, meşəçilik və balıqçılıq üzrə isə kiçik sahibkarlıq subyektlərinin sayı cəmi 40 ədəd (1%) artmış, fərdi sahibkarlar isə 110 ədəd (4,1%) azalmışdır. (2)

"Artıq bir neçə ildir ki, respublikanın aqrar sahəsində aparılan islahatların gedişi prosesində kənddə yeni iqtisadi münasibətlər formalaşmaq üzrədir. Müxtəlif mülkiyyət və sahibkarlıq formalarına əsaslanan istehsal və xidmət qurumlarının yaranması (məhsul istehsalı, emalı və infrastruktur sahələrin tam yeni prinsiplərlə mərhələdə təşkili) həllini gözləyən məsələlərdəndir" (3.s.46).

Təhlildən göründüyü kimi kənd təsərrüfatında sahibkar təsərrüfatlarının sayında bir qayda olaraq artıb-azalma xeyli az müşahidə olunur.

Dövlət və kooperativ kənd təsərrüfatı və sair dövlət müəssisələrinin sayının sürətlə azalmasının səbəbləri məlumdur. Bu ilk növbədə yeni istehsal münasibətlərinə keçid prosesini təmin etmək məqsədilə kənddə sahibkar və sahibkarlıq fəaliyyəti subyektlərinin yaradılması üçün dövlət və kooperativ kənd təsərrüfatı müəssisələrinin məqsədyönlü kütləvi ləğv olunması ilə izah olunur. Yəni, ləğv olunan bu müəssisələr əsasən özəl sahibkar müəssisələri ilə əvəz olunmalı idi. 1991-2009-cu illərdə özəl sahibkar müəssisələrinin dinamikasının təhlili göstərir ki, torpaq islahatının ilk ilindən başlayaraq, kənd təsərrüfatında özəl sahibkar müəssisələrin sayı sürətlə artmağa başlamış və 1998-ci ildə özünün ən yüksək həddinə – 4847 vahidə yüksəlmişdir. Lakin, sonrakı illərdə bu artım mütəmadi azalma ilə müşayiət olunmuş və 2000-ci ildə onların sayı 2500-ə enmişdir. İslahatların ilk illərində, fərdi və ya kollektiv sahibkar təsərrüfatların sayının artıb azalması izah olunandır. Bu, ilk növbədə kapitalın çatışmazlığı və kredit resurslarının məhdudluğu ilə izah oluna bilər. Həqiqətən də, 1991-2000-ci illərdə kənd təsərrüfatına dövlət tərəfindən investisiya qoyuluşu minimuma enmişdir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 1995-2000-ci illərdə respublikanın kənd təsərrüfatına cəmi 42,6 mln. manat, orta hesabla 1 ildə 7,1 mln. manat investisiya yönəldilmişdir (4. s.46). Bu göstəricini iqtisadi baxımdan qiymətləndirməyə ehtiyac yoxdur. O dövrdə dövlət nəinki özəl təsərrüfat subyektlərini, hətta mülkiyyətində saxladığı az saylı toxumçuluq, damazlıq və digər təsərrüfatları tələb olunan məbləğdə vəsaitlə təmin edə bilmədiyindən dövlət sahibkarlığı müəssisələrinin vəziyyəti yeni formalaşmış və gələcəkdə sahibkarlıq fəaliyyəti ilə məşğul olacaq ailə kəndli təsərrüfatları və fərdi sahibkar təsərrüfatlarının vəziyyətindən fərqlənmirdi. Əsasən dövlətin maliyyə dəstəyi sayəsində fəaliyyət göstərmiş kənd təsərrüfatı 1991-2000-ci illərdə maliyyə cəhətdən imkansız istehsal vahidləri ilə üz-üzə qalmışdı.

Məlum olduğu kimi, neft müqavilələri reallaşdıqca dövlətin maliyyə vəziyyəti xeyli yaxşılaşmış və Neft Fondunun vəsaiti hesabına iqtisadiyyatın digər sahələrinə, o cümlədən kənd təsərrüfatına investisiya qoyuluşu mütəmadi artmaqda davam edir. Belə ki, əgər 1995-2000-ci illərdə kənd və meşə təsərrüfatının ümumi daxili məhsulunun hər mln. manatına orta hesabla 10893 manat investisiya yönəldilmişdirsə, 2001-2009-cu illərdə bu göstərici 8 dəfə yüksələrək 87711 manat təşkil etmişdir (6). Müstəqilliyin ilk onilliyindən fərqli olaraq, kənd təsərrüfatının maddi-texniki bazası möhkəmləndirilir, xüsusi Dövlət Proqramları çərçivəsində regionların sosial-iqtisadi problemləri həll olunur, istehsal, sosial infrastrukturlar yeni istehsal münasibətlərinə uyğun bərpa olunur və ya yenidən təşkil olunur, kənd təsərrüfatı məhsulları istehsalı stimullaşdırılır, sahibkarlara güzəştli kreditlər verilir. Bir sözlə, dövlət sahibkarlığın inkişaf etdirilməsi, kənd təsərrüfatı məhsulları istehsalının dayanıqlı inkişafının təmin olunması, respublikanın ərzaq təhlükəsizliyinin daxili istehsal hesabına təmin olunması, idxaldan asılılığın minimuma endirilməsi, ixrac potensialının yüksəldilməsi məqsədilə tutarlı tədbirlər həyata keçirir.

Bununla belə qeyd olunmalıdır ki, respublikanın kənd təsərrüfatı sferasında sahibkarlıq fəaliyyəti zəif inkişaf edir. Belə ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektləri 2009-cu ildə respublika üzrə istehsal olunan taxılın 6,8%-ni, pambığın 16,3%-ni, tütünün 19,2%-ni, şəkər çuğundurunun 15%-ni, dən üçün günəbaxanın 2,1%-ni, kartof, tərəvəz, bostan, meyvə və üzümün uyğun olaraq 0,2; 1,1; 0,7; 0,5 və 12,7%-ni; ətin 16,3, südün isə 1,0%-ni istehsal etmişdir (7). Göründüyü kimi, respublikanın kənd təsərrüfatında aparıcı qüvvə hələlik özəl sahibkar təsərrüfatları

deyil, ailə-kəndli və əhalinin yardımçı təsərrüfatlarıdır. (Statistikanın məcmuələrində göstərilən ailə-kəndli və ev təsərrüfatlarını ailə-kəndli, əhalinin yardımçı təsərrüfatları ilə əvəz etməyimizin səbəblərinə dair yeri gəldikcə mülahizələrimizi bildirəcəyik).

Bu təsərrüfat subyektləri, xüsusilə də ailə kəndli təsərrüfatları kənd təsərrüfatı məhsulları istehsalında və ərzaq bazarının zəruri qida məhsulları ilə təmin olunmasında ən yüksək xüsusi çəkiyə malik olsalar da, onlar natural təsərrüfat damğası ilə damğalandığından sahibkarlıq fəaliyyəti ilə məşğul olan istehsal vahidlərinin tərkibinə daxil edilmirlər.

Yerlərdə apardığımız müşahidələr, fərdi sahibkarlar və ailə kəndli təsərrüfatlarının başçıları ilə müsahibələr belə bir qənaətə gəlməyə əsas verir ki, sahibkar təsərrüfat subyekti kimi qeydə alınmış kəndli (fermer) təsərrüfatları (fərdi sahibkarlar) hüquqi şəxs statusu istisna olmaqla, ailə kəndli təsərrüfatlarından əsaslı heç bir şeylə fərqlənmir. Belə ki, göstərilən hər iki təsərrüfat subyekti: özəlləşdirdiyi pay torpaq və ya icarəyə götürdüyü torpaq sahəsində formalaşıb; ilk növbədə ailə üzvlərinin istehlak tələbatını ödəmək məqsədini reallaşdırır; tələbatlarından artıq qalan məhsulları bazarda satmaqla digər tələbatlarını təmin etmək üçün vəsait əldə edir; hər iki təsərrüfat subyektində təsərrüfat fəaliyyəti ailə üzvlərinin əməyinə əsaslanır və əlavə işçi qüvvəsi tələb olunduqda muzdlu əməkdən istifadə edir; istehsal etdiyi məhsullara və satışdan əldə etdiyi vəsaitə sərbəst sərəncam vermək hüququndan istifadə edir və s.

İnkişafın müasir mərhələsində hər cür təsərrüfat, o cümlədən də ailə-kəndli təsərrüfatı kənd təsərrüfatı məhsulları əldə edən, maksimum gəlir əldə etməyə cəhd göstərən təsərrüfatdır. Muzdlu əmək üzərində qurulan təsərrüfatda həddsiz genişlənməyə bu cəhd nağd kapitalla məhdudlaşır. Yüksək əmək məhsuldarlığında təbiidir ki, kəndli təsərrüfatı təkcə özünün şəxsi tələbatlarını örtməyə deyil, eyni zamanda öz təsərrüfatında geniş təkrar istehsalın genişləndirilməsinə, ümumiyyətlə kapitalın yığımına cəhd göstərəcək. (8.s.80).

Hazırda respublikanın regionlarında torpaq sahəsi, işçi qüvvəsi, məhsul istehsalı həcmi, məhsulların əmtəəlik səviyyəsi, əsas və dövriyyə fondları ilə təmin olunma səviyyəsi, bir sözlə bütün parametrləri fərdi sahibkar təsərrüfatlarındakından xeyli yüksək olan 10 minlərlə ailə kəndli təsərrüfatı fəaliyyət göstərir. Eyni zamanda, hazırda ölkədə yalnız pambıq, tütün, şəkər çuğunduru, günəbaxan istehsalı üzrə ixtisaslaşmış minlərlə özəl təsərrüfat fəaliyyət göstərir ki, bunlar istehsal etdikləri məhsulları ailənin və ya təsərrüfatın istehlakına sərf etmədən birbaşa bazara çıxarırlar. Təəssüflə qeyd etmək lazımdır ki, belə ailə kəndli təsərrüfatları da sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfatlar sırasında uçota alınmır.

Ailə - kəndli təsərrüfatları fiziki şəxs statuslu istehsal vahidləri olmaqla iki mühüm məqsədi - istehsal etdiyi ərzaq təyinatlı məhsullarla, ilk növbədə ailənin istehlak tələbatını ödəmək, ailənin öz istehsalı olmayan digər məhsullara və xidmətlərə olan tələbatının ödənilməsi üçün tələbatından artıq məhsulları sataraq müəyyən məbləğdə vəsait əldə olunması məqsədini güdür. Ailə kəndli təsərrüfatı, bir qayda olaraq, özünün cavabdehliyi və əmlak məsuliyyəti ilə fəaliyyət göstərərək, əsasən, kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olur.

Xalq təsərrüfatı sisteminə daxil olan fərdi təsərrüfatların bir qisimi həm istehsalla, həm də öz aralarında mübadilə ilə məşğul olur. Bu təsərrüfatları mübadilə birləşdirir və onlar arasında mübadilə olmasaydı, yəqin ki, biri digəri ilə əlaqə saxlaya bilməzdi, yəni mövcud ola bilməzdi. Bu növ təsərrüfatlar mübadilə ilə üzvi surətdə bağlıdırlar və buna görə də onları mübadilə təsərrüfatları adlandırırlar. Lakin, bu tip təsərrüfatlarda hamının mübadilə ilə əlaqə dərəcəsi eyni səviyyədə olmur, yəni elə təsərrüfatlar var ki, mübadilə ilə qismən bağlıdır. Bu tip təsərrüfatlarda istehsal olunan məhsulların bir hissəsi şəxsi istehlaka istifadə olunur. Belə təsərrüfatlar natural təsərrüfatlar adlanır. Beləliklə, mübadiləyə əsaslanan xalq təsərrüfatı öz aralarında qarşılıqlı fəaliyyətdə olan mübadilə və natural mübadilə təsərrüfatlarının məcmusunu əhatə edir.

Yuxarıda qeyd etdiyimiz kimi, ailə kəndli təsərrüfatları istehsal prosesini həyata keçirmək üçün tələb olunan istehsal amillərinin (torpaq, əmək, kapital və sahibkarlıq bacarığı) demək olar ki, hamısına malikdirlər. İstehsal amillərinin daşıyıcıları, eyni zamanda, onların sahibləri hesab olunur. Mümkündür ki, torpaq sahəsinə malik olan kəndli ailəsi müəyyən obyektiv səbəblər üzündən

mülkiyyətində olan 1 hektar torpaq sahəsindən həyatyanı sahəsində (yardımçı təsərrüfatında) bəslədiyi bir baş inəyi üçün yem tədarük etsin. Eyni zamanda, inəyindən hər il əldə etdiyi az miqdarda südü mütəmadi, buzovu isə müəyyən müddət saxladıqdan sonra bütövlükdə ailə üzvlərinin tələbatının ödənilməsinə istifadə etsin. Şübhəsiz ki, belə təsərrüfatlar, sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat hesab olunmamalıdır. Belə təsərrüfatlar həqiqətən də natural təsərrüfatlardır. Qalan bütün ailə-kəndli təsərrüfatları istehsal etdiyi məhsulların cüzi bir hissəsini şəxsi istehlaka, böyük əksəriyyətini isə bazarda reallaşdırır. Belə təsərrüfatlar, ən azı natural mübadilə və ya yarınatural təsərrüfatlar adlandırılmalıdır.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 1 iyun 2005-ci il vəziyyətinə siyahıyaalınma məcmuələrində qeyd olunur ki, "Kəndli (fermer) təsərrüfatı əsasən şəxsi əməyə əsaslanmaqla mülkiyyətində və ya icarəsində olan torpaq və mülkdə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və satışı ilə məşğul olan və hüquqi şəxs kimi rəsmi qeydiyyatdan keçmiş təsərrüfatçılıq formasıdır. Kəndli (fermer) təsərrüfatı tək şəxs və ya ailə ola bilər.

"Ailə-kəndli təsərrüfatı" haqqında Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə əlaqədar hazırda kəndli (fermer) təsərrüfatları sahibkar təsərrüfatları hesab olunurlar" (9).

Göründüyü kimi, kəndli (fermer) təsərrüfatları (hazırda bunlar fərdi sahibkar təsərrüfatları adlanır) deyərkən hüquqi şəxs kimi qeydiyyatdan keçmiş tək şəxsin və ya ailənin təsərrüfatı nəzərdə tutulmalıdır. Lakin, araşdırmalar göstərir ki, istər siyahıyaalma ilinin əvvəlinə, istər ondan əvvəlki və istərsə də hazırda Statistika Komitəsinin məcmuələrində göstərilən fərdi sahibkar təsərrüfatlarının böyük əksəriyyəti tək şəxsə və ya bir ailəyə məxsus deyil.

Belə ki, torpaq islahatı nəticəsində 867773 kəndli ailəsi torpaq mülkiyyətçisi olmuşdur. Bu ailələrdən 14232-si 1163 kollektiv müəssisə, 1057-si 164 kənd təsərrüfatı istehsalı kooperativi 985-i 374 kiçik müəssisə, 518-i 107 sair özəl kənd təsərrüfatı müəssisəsi təsis etmiş, təqribən (respublika üzrə orta hesabla bir kəndli ailəsinə düşən torpaq payına istinad etməklə) 10392 kəndli ailəsi 2599 kəndli (fermer) təsərrüfatı yaratmış, qalan 840589 kəndli ailəsi ailə-kəndli təsərrüfatı formasında fəaliyyət göstərir (10).

Dövlət Statistika Komitəsinin "Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri" məcmuəsində qeyd olunmuş torpaq sahəsinə dair göstəricilər də bu fikri təsdiqləyir.

Belə ki, 2005-ci ildə respublika üzrə 2681, 2010-ci ildə isə 2618 fərdi sahibkar təsərrüfatı qeydə alınmışdır. Uyğun olaraq, bu təsərrüfatların kənd təsərrüfatına yararlı torpaq sahəsi 22577 və 45735 hektar, o cümlədən əkin yeri 16112 və 33764 hektar, məhsul istehsalında iştirak edən ailə üzvlərinin sayı 11474 və 10536 nəfər, kənardan cəlb edilmiş işçilərin sayı isə 2059 və 2311 nəfər olmuşdur. Bir təsərrüfata orta hesabla 8,4 və 17,5 ha yararlı torpaq sahəsi, 5,0 və 4,9 nəfər işçi düşür. Dövlət Statistika Komitəsinin 2004-cü il yanvarın 1-i vəziyyətinə hazırladığı "Aqrar islahatların gedişi" haqqında bülletenin məlumatları da bu fikri dəstəkləyir. Belə ki, göstərilən tarixə respublikada 2598 fərdi kəndli (fermer) təsərrüfatı olmuşdur. Onların mülkiyyətində 18692 ha kənd təsərrüfatına yararlı sahə, o cümlədəndə 15790 ha əkin yeri olmuşdur ki, bu da 1 təsərrüfata orta hesabla 7,2 ha yararlı sahə deməkdir. Bundan əlavə bu təsərrüfatların icarə və istifadəsində 24475 ha yararlı torpaq sahələri olmuşdur ki, bu göstərici 1 təsərrüfata düşən yararlı sahənin hesablanmasında iştirak etməmişdir (7; 10). Bu göstəricilər nə respublika üzrə orta torpaq normasına, nə də bir ailədə mövcud olan işçi qüvvəsi sayına uyğun gəlir. Deməli, mövcud kəndli (fermer) təsərrüfatlarının əksəriyyəti 2 və daha çox ailəyə məxsusdur. Dövlət Statistika Komitəsinin qeyd etdiyi kimi, iki və daha çox ailəni, habelə vətəndaşların kollektiv birgə əməyinə və xüsusi mülkiyyətinə əsaslanmaqla kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və satışı ilə məşğul olan təsərrüfatlar kollektiv (birgə) təsərrüfat adlanır. Yəni mövcud fərdi sahibkar təsərrüfatlarının böyük əksəriyyəti kollektiv-birgə təsərrüfatlardır.

Həllini gözləyən başqa bir mühüm məsələ kəndli (fermer) təsərrüfatlarının sahibkar təsərrüfatı, ailə-kəndli təsərrüfatlarının isə sahibkar təsərrüfatı adlandırılmamasıdır.

Təsərrüfat subyektlərinin sahibkarlıq fəaliyyəti və ya natural təsərrüfatlar sırasına aid edilməsində əsas meyar təsərrüfatda istehsal olunan məhsulların dəyər ifadəsində satışı həcmidir. Müəyyən obyektiv səbəblərlə əlaqədar Statistika Komitəsi nəinki təsərrüfat kateqoriyaları üzrə (Dövlət kənd təsərrüfatı müəssisələri istisna olmaqla), hətta bütövlükdə ayrı-ayrı məhsulların əmtəəlik səviyyəsinə dair məlumat vermir. Hələlik Statistika Komitəsi “Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri”ndə müvafiq illərin faktiki qiymətləri ilə kənd təsərrüfatının ümumi məhsulu və satışından əldə edilən pul gəliri göstəricilərini verməklə kifayətlənir. Nəzərə alsaq ki, həm kənd təsərrüfatının ümumi məhsulu, həm də satışdan əldə olunan pul vəsaiti məbləği müvafiq illərin faktiki satış qiymətləri ilə hesablanıb, bu halda bütövlükdə fədri sahibkar təsərrüfatları üzrə məhsulların əmtəəlik səviyyəsini müəyyən edə bilərik. Hesablamalar göstərir ki, 2005-ci ildə fərdi sahibkar təsərrüfatları üzrə məhsulların əmtəəlik səviyyəsi 66,9%, 2008-ci ildə 69,8%, 2009-cu ildə 74,9%, 2010-cu ildə isə 75,9% olmuşdur. Yəni, bu təsərrüfatlarda istehsal olunan kənd təsərrüfatı məhsullarının ən azı 25-30%-i təsərrüfatı təmsil edənlərin istehlak tələbatının və təsərrüfatın istehsal tələbatının ödənilməsinə sərf olunur. Məhsulların əmtəəlik səviyyəsi ilə əlaqədar eyni vəziyyət ailə-kəndli təsərrüfatı üçün səciyyəvidir, yəni, kəndli təsərrüfatları da fərdi sahibkar təsərrüfatları kimi, istehsal etdikləri məhsulların bir qisimini ilk növbədə ailə üzvlərinin istehlak tələbatlarının təmin olunmasına sərf edirlər. Bu təsərrüfat subyektlərində məhsulların əmtəəlik səviyyəsi fərdi sahibkar təsərrüfatlarının faktiki səviyyəsindən yüksək deyil. Yuxarıda qeyd etdiyimiz kimi, nəzərə alsaq ki, fərdi sahibkar təsərrüfatlarının müəyyən hissəsi bir neçə ailəni, ailə-kəndli təsərrüfatları isə bir ailəni təmsil edir, bu halda sonuncu təsərrüfat subyektlərində məhsulların əmtəəlik səviyyəsi daha yüksəkdir.

Hər iki təsərrüfatı ailə başçısı və ya ailə üzvlərindən biri idarə edir.

Hər iki təsərrüfatda fəaliyyət əsasən ailə üzvlərinin əməyinə əsaslanır və zəruri hallarda hər iki təsərrüfat muzdlu əməkdən istifadə edir. Hər iki təsərrüfat istehsalın istiqamətini, məhsul istehsalı həcmini, onların satış kanallarını, əkin sahələrinin strukturunu və s. müəyyən etməkdə müstəsna səlahiyyətlərə malikdirlər.

Hər iki təsərrüfat cəmiyyət qanunlarından eyni səviyyədə faydalanır və s. Araşdırmalar göstərir ki, bu iki təsərrüfat subyekti arasında birinin fiziki, digərinin isə hüquqi şəxs olması faktı istisna olmaqla, heç bir əsaslı fərq yoxdur. Əksinə, fərdi sahibkar təsərrüfatlarının böyük əksəriyyətindən fərqli olaraq, ailə-kəndli təsərrüfatının bir şəxsə və ya bir ailəyə məxsus olması faktı bu təsərrüfat subyektinin kəndli (fermer) təsərrüfatı statusuna daha yaxın olmasını göstərir.

Kənd təsərrüfatı sferasında sahibkar və sahibkarlıq fəaliyyəti ilə əlaqədər mülahizələrimizin ümumiləşdirilməsindən aşağıdakı nəticələr hasil olur:

1. Kənd təsərrüfatında sahibkarlar təbəqəsinin zəif inkişafının, yəni, sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayının artmamasının əsas səbəbi sahibkarlıq subyektlərinin nəinki düzgün, ümumiyyətlə, uçota alınmamasıdır. Bu haqda «Sahibkarlıq haqqında» və «Ailə kəndli təsərrüfatı haqqında» Azərbaycan Respublikasının qanunlarında xüsusi maddələr qeyd olunsa da, hələlik bu vacib işlə məşğul olan yoxdur.

2. “Sahibkarlıq fəaliyyəti” haqqında qanunun 10-cu maddəsinin 2-ci bəndində göstərilir ki, «Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin uçotunu onların yaşadıqları və fəaliyyət göstərdikləri yerli vergi orqanları aparır» (1). Məlum olduğu kimi, kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan istehsal subyektləri torpaq vergisi istisna olmaqla, bütün növ vergilərdən azaddır. Torpaq vergisini isə bələdiyyələr yığırlar və deməli, onlar da sahibkarların uçotunu aparmalıdır. Kənd təsərrüfatında fəaliyyət göstərən fiziki şəxsləri hansı meyara görə sahibkar təsərrüfatı kimi uçota almaq lazım olması barədə konkret göstəriş olmadığı üçün bələdiyyələr də bu işi yerinə yetirə bilmir.

3.“Ailə-kəndli təsərrüfatı” haqqında Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 9,4 bəndində göstərilir ki, «ailə-kəndli təsərrüfatının illik dövriyyəsinin yuxarı həddi müvafiq icra hakimiyyəti orqanlarının müəyyən etdiyi miqdarı keçdikdə, o, sahibkarlıq fəaliyyətinin subyekti

kimi fəaliyyət göstərir» (9). 2005-ci illə müqayisədə 2009-cu ildə kənd təsərrüfatının ümumi məhsulu 1833,8 mln. manat (105,9%), orta illik artım isə 458,5 mln. manat (25%) təşkil etmişdir. Bununla belə, qanun qəbul olunan ilin (2005-ci il) sonuna respublikanın kənd təsərrüfatı sferasında 2201 özəl sahibkarlıq subyekti olduğu halda, 1 yanvar 2010-cu ildə onların sayı 2158-ə enmişdir (9). Göründüyü kimi, yerlərdə bu vacib işlə məşğul olan yoxdur.

Qeyd olunan bu 3 problemlə əlaqədar olaraq, kənd təsərrüfatında sahibkarlıq subyektlərinin sayı artmaq əvəzinə azalmaqdadır;

Problemin həlli, həmçinin, respublikada fəaliyyət göstərən təsərrüfat subyektlərinin statusunun düzgün müəyyənləşdirilməsi üçün tədbirlər görülməlidir. Hazırda Azərbaycanda fəaliyyət göstərən ailə-kəndli təsərrüfatlarının sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektləri sırasına (fermer təsərrüfatları) daxil olunmasının mümkünlüyünü müəyyən etmək üçün xarici təcrübəyə müraciət etməyi məqsədəmüvafiq hesab edirik. ABŞ-nın təcrübəsinə görə, o təsərrüfatlar fermer təsərrüfatları hesab olunur ki, onların illik məhsul satışı, həcmi 1000 dollardan yüksəkdir (5, s. 63). Deməli natural təsərrüfat damğası ilə damğalanmış ailə-kəndli təsərrüfatlarınızdan il ərzində 800 manatlıq məhsul satan bütün təsərrüfatlar fermer təsərrüfatları adlandırılmalıdır. Hesab edirik ki, qeyd olunanlarla əlaqədar düşünməyə dəyər.

Statistika Komitəsinin 1 iyun 2005-ci il vəziyyətinə siyahıyaalınma məlumatlarında diqqəti cəlb edən başqa bir məsələ, “ailə-kəndli” və “ev” təsərrüfatlarının statusunun müəyyən olunması meyarıdır. Sənəddə qeyd olunur ki, “Siyahıyaalmada aqrar islahat nəticəsində pay torpağı almış və təsərrüfat (ailə) başçısı bilavasitə öz təsərrüfatında çalışan təsərrüfatlar “ailə-kəndli təsərrüfatı” kimi, ailə başçısı təsərrüfatdan kənarda çalışan təsərrüfatlar isə “ev təsərrüfatı” kimi uçota alınmışdır. Ev təsərrüfatlarına həmçinin, aqrar islahat nəticəsində pay torpağı almamış, yalnız həyətyanı torpaq sahəsi və mal-qarası olan şəhər və qəsəbə sakinlərinin təsərrüfatları da daxil edilmişdir”.

İlk növbədə qeyd etmək lazımdır ki, ailə-kəndli təsərrüfatlarının statusu “Ailə-kəndli təsərrüfatları haqqında” Azərbaycan Respublikasının qanunu ilə müəyyən olunmuşdur. Qanunda göstərilir ki, “Ailə-kəndli təsərrüfatı ailə üzvlərinin və onlarla birgə fəaliyyət göstərən şəxslərin fərdi əməyi və mülkiyyətində və ya icarəsində olan əmlak əsasında hüquqi şəxs yaratmadan kənd yerlərində istehsal və digər təsərrüfat fəaliyyətinin (məhsulların istehsalını, emalını, saxlanmasını, daşınmasını və satılmasını) birgə həyata keçirilməsidir. Ailə-kəndli təsərrüfatı onun üzvlərinin seçdiyi təsərrüfat başçısı tərəfindən idarə edilir”. Göründüyü kimi, kəndli ailəsi təkcə mülkiyyətinə verilmiş torpaqda deyil, həm də icarəyə götürdüyü torpaq sahəsində hüquqi şəxs yaratmadan təsərrüfat fəaliyyəti ilə məşğul olursa, deməli o, “ailə-kəndli təsərrüfatı” adlanır. Digər tərəfdən, “ailə-kəndli təsərrüfatı”nın statusu təsərrüfatın kim tərəfindən (adına torpaq sahəsi rəsmiləşdirilmiş ailə başçısı və ya ailənin fəaliyyət qabiliyyətli istənilən üzvi) idarə edilməsi ilə deyil, tamamilə başqa meyarla müəyyən edilir.

Sual oluna bilər ki, ailə başçısı öz təsərrüfatını idarə etdikdə və ya kənarda çalışsa ailə-kəndli təsərrüfatının funksiyalarında nə kimi kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verir? Yəqin ki, cavab birmənalı olacaq, heç bir dəyişiklik olmaz. Həqiqətən də, ailə başçısının öz təsərrüfatında və ya kənarda çalışması ailə-kəndli təsərrüfatının yerinə yetirdiyi funksiyaları dəyişmir. Ona görə də ailə-kəndli təsərrüfatını idarə edənin ailə üçün əvəzsiz ayrılmış pay torpağına dair adına dövlət sənədi rəsmiləşdirilmiş şəxs və ya fəaliyyət qabiliyyətli ailə üzvlərindən hansısa birinin olması, bu təsərrüfatın statusunun dəyişdirilməsi üçün əsas ola bilməz. Kəndli ailələrinin mülkiyyətinə verilmiş torpaqlarda hər bir ailə üzvinin payı var və fəaliyyət qabiliyyətli hər bir ailə üzvi onu idarə edə bilər.

Lakin, qeyd etdiklərimiz heç də o demək deyil ki, ailə-kəndli təsərrüfatları əbədi olaraq natural və ya natural-mübadilə (yarımnatural)təsərrüfat kimi fəaliyyət göstərməyə məhkumdur. Ailə-kəndli təsərrüfatları hüquqi şəxs yaratmaqla kəndli-fermer təsərrüfatları, kiçik müəssisələr, bir neçə ailə birləşməklə birgə təsərrüfatlar, müxtəlif kooperativlər yaratmaq yolu ilə statusunu dəyişə bilərlər.

Məhsul istehsalı sferasında fəaliyyət göstərən təsərrüfat kateqoriyalarında sərf olunan əmək ictimai faydalı əməkdir. Yəni, belə təsərrüfatlarda sərf olunan əmək ictimai tələbatların təmin olunmasına xidmət edir. Eyni zamanda, təsərrüfatı təmsil edən ailənin üzvləri ictimaiyyətin nümayəndələridir və onlar da cəmiyyətin digər üzvləri kimi tələbatlarını ödəmək hüququna malikdirlər. Ailə üzvlərini təmsil edən ev təsərrüfatlarının əsas vəzifəsi, daha az xərclə yüksək keyfiyyətli məhsullarla daha çox tələbatları təmin etməkdən ibarətdir. Məsələyə bu prizmadan yanaşdıqda görürük ki, istehsal etdikləri məhsullarla ilk növbədə ailənin tələbatını təmin edən təsərrüfatlar ev təsərrüfatlarının əsas vəzifəsini reallaşdırır.

Faktlara müraciət edək.

Dövlət Statistika Komitəsinin məlumatlarından göründüyü kimi, fərdi sahibkarlar və ailə-kəndli təsərrüfatlarında 2004-2010-cu illərdə bütün bitkiçilik və heyvandarlıq məhsulları rentabellidir. Bu o deməkdir ki, məhsul vahidi istehsalına sərf olunmuş vəsait məbləği məhsulların satış qiymətlərindən azdır. Həqiqətən də göstərilən bütün illərdə, o cümlədən də 2010-cu ildə özəl sektorda dənli və dənli paxlalıların bir sentneri 17,46 manata, kartof 15,13 manata, tərəvəz 9,69 manata, bostan məhsulları 9,33 manata, meyvə və giləməyvə 15,63 manata, üzüm 22,24 manata, iri buynuzlu mal-qarada çəki artımı 186,52 manata, qoyun və keçidə 186,73 manata, quşlarda 214,09 manata, süd 25,25 min ədəd yumurta 65,42 manata başa gəldiyi halda onların orta satış qiyməti uyğun olaraq 22,80; 50,80; 28,40; 19,80; 45,30; 39,20; 266,20; 279,0; 251,90; 45,40 və 150 manat təşkil etmişdir (7). Bu, heç də o, demək deyil ki, özəl təsərrüfatların hamısında məhsulların satışı rentabellidir. Nəzərə alsaq ki, bunlar orta göstəricidir, deməli, özəl təsərrüfatların müəyyən hissəsində məhsulların maya dəyəri orta göstəricidən aşağı, digər qismində isə orta göstəricidən yüksək olmuşdur. Məhsulların maya dəyəri ilə satış qiymətləri arasındakı kəskin artım fərqi onu deməyə əsas verir ki, özəl təsərrüfatların böyük əksəriyyətində, bəlkə də hamısında məhsulların maya dəyəri onların satış qiymətindən aşağıdır. Belə bir şəraitdə, istehsal etdiyi taxılın kiloqramını 22,8 qəpiyə, kartofu 50,8 qəpiyə, tərəvəzi 28,4 qəpiyə, diri çəkidə mal ətinin kiloqramını 2,66 manata, qoyun ətini 2,79 manata, südü 45,4 qəpiyə satıb, çörəyin kiloqramını 50 qəpiyə, kartofu 60-70 qəpiyə, tərəvəzi 40-50 qəpiyə, kəsilmiş çəkidə bir kiloqram mal ətini 7-8 manata, qoyun ətini 9-11 manata, sənaye emalından keçirilərək paketləşdirilmiş südün litrini 1,40-1,80 manata satın almağı necə qiymətləndirmək olar?

Əgər fərdi sahibkar və ya ailə-kəndli təsərrüfatı ailəsini istehsal etdiyi ucuz və keyfiyyətli təzə məhsullarla təmin edirsə, deməli o, ev təsərrüfatının xərclərə qənaət etməsi vəzifəsini reallaşdırır və buna nail olur.

Hazırda hətta ən ucqar kəndli təsərrüfatında xalq təsərrüfatı dövriyyəsi ilə əlaqədən kənar bir kisə də olsa buğda istehsal olunmur. Əgər o, istehsalçının evində istehlak olunsa belə, hər halda istehsal alətlərinin əhəmiyyətli hissəsi (kotan, dəryaz, taxıldöyən, iş heyvanları, süni gübrələr və s.) kəndli tərəfindən mübadilə yolu ilə alınmışdır və istehlak o hallarda baş verir ki, bazarın şərtlərinə görə o sərfəli hesab olunur. (11.s.133)

Təsərrüfatlarda istehsal olunan məhsulların bir hissəsinin bilavasitə istehsal yerində istehlaka sərf olunmasının cəmiyyətə heç bir mənfi təsiri yoxdur. Belə vəziyyət yalnız ərzaq məhsulları bazarında bilavasitə təsərrüfatlarda istehlak olunan məhsulların həcmi qədər əmtəə kütləsini azaldır.

Ailə-kəndli təsərrüfatlarından bəhs edərkən bir məsələyə də münasibət bildirməyi vacib hesab edirik.

Məlum olduğu kimi, kolxoz və sovxozların istifadəsində olmuş torpaqların kütləvi surətdə özəlləşdirilməsinə başlayana kimi, həm də torpaq islahatının həyata keçirildiyi illərdə çoxsaylı dövlət qanunları qəbul olunmuşdur. Bu qanunlardan bir neçəsində kolxoz və sovxozların islahatı nəticəsində respublikanın kənd təsərrüfatında fəaliyyət göstərəcək yeni təsərrüfat subyektlərinə dair məlumat verilmişdir. Ən geniş məlumat "Sovxoz və kolxozların islahatı haqqında" Azərbaycan Respublikasının qanununda verilmişdir. Bu qanunda qeyd

olunur ki, "İslahatın vəzifələri sovxoz və kolxozların kəndli (fermer) təsərrüfatlarına bölünməsindən, birgə sahibkarlığa əsaslanan xüsusi mülkiyyətli kənd təsərrüfatı müəssisələrinə çevrilməsindən, sovxozların bazasında dövlət kənd təsərrüfatı müəssisələrinin yaradılmasından, şəxsi yardımçı təsərrüfatların inkişafından, yaradılmış təsərrüfatların kooperasiyası və xidmət sahələrinin təşkilindən ibarətdir".

"Sovxoz və kolxozların islahatı onların kəndli (fermer) təsərrüfatlarına bölünməsini, birgə sahibkarlığa əsaslanan xüsusi mülkiyyətli kənd təsərrüfatı müəssisələrinə çevrilməsini, sovxozların bazasında dövlət kənd təsərrüfatı müəssisələrinin yaradılmasını, şəxsi yardımçı təsərrüfatların inkişafını nəzərdə tutur". Digər qanunlarda da torpaq islahatı nəticəsində analoji təsərrüfat subyektlərinin formalaşacağı göstərilmişdir. Beləliklə, heç bir qanunda torpaq sahələrinin kəndli ailələri arasında bölgüsü nəticəsində kəndlərdə fiziki şəxs statuslu ailə-kəndli təsərrüfatlarının formalaşacağı göstərilməmişdir. Bunun nəticəsidir ki, torpaq payı almış kəndli ailələrinin təsərrüfatları 2005-ci ilə kimi öz həqiqi adını daşımamışdır.

Torpaq islahatı həyata keçirilən illərdə mülkiyyətinə torpaq sahəsi almış kəndli ailələrinin bir qismi kəndli (fermer) təsərrüfatları adlandırılmışdır. Bu səbəbdən də kəndli (fermer) təsərrüfatlarının sayı mexaniki surətdə artmaqda davam etmişdir. Belə ki, 1 yanvar 1996-cı il vəziyyətinə respublikada 3186 kəndli (fermer) təsərrüfatı mövcud olmuşdursa, bu göstərici 1997-ci ildə 11412-yə, 01.01.1998-ci ildə 22783-ə, 01.01.1999-cu ildə 25608-ə, 1 oktyabr 1999-cu ilə isə 38183-ə yüksəlmişdir. Sonradan məlum oldu ki, kəndli (fermer) təsərrüfatı hüquqi, bunların sırasına daxil edilmiş təsərrüfatlar isə fiziki şəxsdir. Odur ki, 01.01.2001-ci ildə kəndli (fermer) təsərrüfatlarının sırasından fiziki şəxs statuslu təsərrüfatlar çıxarıldı və respublikada 3248 kəndli (fermer) təsərrüfatı olduğu göstərildi (11).

"Təbii ki, bu ərəfədə göstərilən anormallığın müxtəlif səbəbləri var idi, əsas səbəblərdən biri torpaq islahatının sürətli gedişi barədə ölkə" rəhbərliyinə "raport" verilməsi idisə, digər səbəbi isə həmin dövürdə hər bir kəsin aldığı torpaq payının kəndli (fermer) təsərrüfatı adlandırılması idi. Qanunvericiliyə uyğun olaraq hüquqi status əldə etməyən bu xüsusi təsərrüfatların yaradılması kəndli (fermer) təsərrüfatlarının sayının birdən birə yüksəlməsinə səbəb olurdu". (12.s.135)

Torpaq islahatı həyata keçirilən illərdə mülkiyyətinə torpaq sahəsi götürmüş, lakin kəndli (fermer) təsərrüfatları sırasına daxil edilməmiş təsərrüfatlar "Əhali təsərrüfatları" və ya "Əhalinin şəxsi yardımçı təsərrüfatları" kimi qeydə alınmış və bu vəziyyət 2005-ci ilə kimi davam etmişdir. 2005-ci ildə isə müstəqil iqtisadi kateqoriya hesab edilən "Əhalinin şəxsi yardımçı təsərrüfatları" Dövlət Statistika Komitəsi tərəfindən müstəqil istehsal subyektləri sıralarından çıxarılaraq "ev təsərrüfatları"na daxil edildi. Bununla əlaqədar, hesab etmək olar ki, əhalinin şəxsi yardımçı təsərrüfatlarının inkişaf etdirilməsinə dair qüvvədə olan qanunların müddəaları heç bir qanuni gücə malik deyil və əhalinin şəxsi yardımçı təsərrüfatları bazar iqtisadiyyatı sisteminin prinsiplərinə ziddir. Bu isə səhv təsəvvürdən savayı başqa bir şey deyil.

Torpaq islahatı nəticəsində Azərbaycanın kənd təsərrüfatında fəaliyyət göstərən istehsal subyektlərində əhəmiyyətli yeniləşmə baş vermişdir. Hazırda kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan müəssisə və təsərrüfatların (məhdud məsuliyyətli müəssisə formasında fəaliyyət göstərən birgə təsərrüfatlar, səhmdar cəmiyyətləri, şərikli, müəssisə formasında fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri, birliklər, ailə-kəndli təsərrüfatları və s.) əksəriyyəti sovetlər dövründə mövcud olmamışdır. Bu istehsal subyektlərini fəaliyyət pirnsiplərinə görə düzgün müəyyən etmək, bunların uyğun və fərqli cəhətlərini başa düşmək, iqtisadi fəaliyyətinin mahiyyətinə görə statusunu düzgün müəyyənləşdirmək mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir.

Əhalinin şəxsi yardımçı təsərrüfatları həm sovetlər dövründə, həm də bazar sistemi təşəkkül tapıb inkişaf etdiyi hazırkı dövrdə mövcud olan təsərrüfatlardandır. Adından məlum olduğu kimi, şəxsi yardımçı təsərrüfat əsas təsərrüfatın inkişafına, onun səmərəli fəaliyyətinə, əhalinin tələbatının ödənilməsinə dəstək olan müstəqil fəaliyyət sahəsidir. Yerinə yetirdiyi funksiyalar baxımından, şəxsi

yardımçı təsərrüfat ictimai istehsalın mühüm elementi və kənd əhalisinin, xüsusilə də ahılların, evdar qadınların, şagirdlərin və s. asudə vaxtlarında iqtisadi fəaliyyət sferasıdır.

Fərdi yardımçı təsərrüfatların yerinə yetirdiyi iqtisadi və sosial funksiyalar yüksək inkişaf etmiş ölkələrdə formalaşmış istehsal münasibətlərinin təbiətinə tam cavab verir və sosialist istehsal üsulundan bazar sisteminə keçən bütün ölkələr üçün xarakterik olmaqla cəmiyyətdə ərzaq resursları yaradılmasının əlavə mənbəyidir. Məhz elə bu nöqteyi nəzərdən, torpaq islahatı həyata keçirilərkən respublika vətəndaşlarının şəxsi yardımçı təsərrüfatları ləğv edilərək dövlətin müvafiq torpaq fonduna qatılmamışdır. Dövlət həyətyanı torpaq normasına uyğun olan yardımçı təsərrüfatları birbaşa bunlardan istifadə edənlərin mülkiyyətinə vermiş, normadan artıq olan həyətyanı sahələr isə islahat aparılarkən müəyyən olunmuş orta torpaq norması hesabı ilə ailəyə düşən torpaq payından azaldılmışdır.

Fərdi yardımçı təsərrüfatlar həmişə mühüm dövlət, ictimai, iqtisadi və sosial əhəmiyyət kəsb etmiş, edir və edəcəkdir.

Bununla belə, istər sovetlər dövründə, istərsə də bu gün fərdi yardımçı təsərrüfatların təbiəti anlayışında dolaşıqlığa yol verilir. Sovetlər dövründə Statistika Komitəsinin rəsmi məlumatlarında fərdi yardımçı təsərrüfat əvəzinə "fərdi sektor", "şəxsi təsərrüfat" və ya "şəxsi sektor" ifadələri işlədilirdi. Bu anlayışlar "yardımçı təsərrüfat"ın sosial təbiətini tam əks etdirə bilməzdi. Belə ki, adından məlum olduğu kimi "yardımçı təsərrüfat" əsas təsərrüfatın (ev təsərrüfatının) inkişafına, onun səmərəli fəaliyyətinə, ev təsərrüfatını təmsil edənlərin tələbatlarının ödənilməsinə dəstək olan müstəqil fəaliyyət sferasıdır. Məsələyə bu prizmadan baxıldıqda, yardımçı təsərrüfat ictimai istehsalın mühüm elementi və kənd əhalisinin iqtisadi fəaliyyət sferasıdır. İstər sovetlər dövründə, istərsə də bazar sisteminin hazırkı inkişaf mərhələsində şəxsi yardımçı təsərrüfatların mövcud olmasını aşağıdakı amillər şərtləndirir.

1. Kənd təsərrüfatı istehsalının zəif inkişafı.
   Həqiqətən kənd təsərrüfatının müasir inkişaf səviyyəsi bir sıra məhsullar, xüsusilə də heyvandarlıq məhsulları üzrə artmaqda olan tələbatların ödənilməsi üçün hələlik yetərli deyil.
2. Ailələrin gəlirləri arasındakı diferensasiya, xüsusilə də şəhərdə yaşayan ailələrlə müqayisədə kəndli ailələrinin gəlirlərinin az olması.
3. Sənayedən fərqli olaraq, kiçik təsərrüfatın kifayət qədər effektiv aparılmasına imkan verən kənd təsərrüfatı istehsalının xüsusiyyətləri.
4. Kənd təsərrüfatının tarixən quruluşu və şəraiti.
5. Kənd yerlərində infrastruktur sahələrin, xüsusilə də ticarət şəbəkəsinin zəif inkişafı və kəndli ailələrinin gündəlik tələbat mallarına olan tələbatının ödənilməsi üçün nağd vəsaitin olmaması və ya az olması.

Kənd yerlərində, eləcə də rayon mərkəzlərində, qəsəbələrdə, hətta iri şəhərlərdə fərdi yardımçı təsərrüfatlar, onların ailəsinin məskunlaşma məkanı olmaqla bərabər aşağıdakı mühüm funksiyaları yerinə yetirirlər:

1. Digər təsərrüfat kateqoriyalarında istehsal olunan bitkiçilik və heyvandarlıq məhsullarına əlavə olaraq ümumi və əmtəəlik məhsullar istehsal etmək.

2. Ailənin tələbatını ödədikdən sonra artıq qalan məhsulların satışının həyata keçirilməsi və satışdan əldə etdiyi vəsaitə ailənin digər məhsullara olan tələbatının ödənilməsini təmin etmək.

3. Öz ailəsinin, həmçinin şəhərdə yaşayan bir neçə ailənin istehlakını, o cümlədən zəruri qida məhsulları istehlakını yaxşılaşdırmaq.

4. Tələbatından artıq istehsal etdiyi məhsulları tədarük strukturlarına, vasitəçilərə və ya birbaşa bazarda satmaqla ərzaq bazarının formalaşması və inkişaf etdirilməsində yaxından iştirak etmək.

5. Məhdud imkanlı ailələrin, kənddə və şəhərdə yaşayan qohumları və yaxınlarını kənd təsərrüfatı ərzaqları ilə təmin etmək.

6. Fərdi sahibkar, ailə-kəndli təsərrüfatlarında istifadəsi mümkün olmayan istehsal vasitələri və əmək resurslarından istifadə etmək, yəni:

- maddi və qeyri-maddi istehsalın digər sahələrində çalışan ailə üzvlərinin əməyindən işdən sonra istifadə edir;
- ailəni təmsil edən evdar qadınların, pensiyaçıların, yeniyetmələrin, hətta əlillərin əməyindən istifadə edir;
- kənd təsərrüfatı məhsulları istehsalı üçün yararsız olan torpaq sahəsini yararlı vəziyyətə gətirərək az məhsuldar torpaqdan istifadə edir.

8.Xalq təsərrüfatının digər sahələri üçün işçi qüvvəsinin təkrar istehsalına əlverişli şərait yaradır.

9.Gənc nəsli əməyə və peşə istiqamətinə istiqamətləndirir.

Belə ki, yardımçı təsərrüfatda əmək gənc nəsildə torpağa və təbiətə təsərrüfat münasibətlərinin formalaşmasına, kəndli əməyinə məhəbbət tərbiyə edir ki, bunlar da son nəticədə kəndli əməyinin nüfuzunun yüksəlməsinə xidmət edir.

Görüdüyü kimi, maddi istehsalın digər sahələri kimi yardımçı təsərrüfatlar da eyni ümumi xalq təsərrüfatı vəzifəsi yerinə yetirir. Yardımçı təsərrüfatların iqtisadi və sosial məzmunu da elə bundan ibarətdir.

Şəxsi yardımçı təsərrüfatlar yerinə yetirdiyi iqtisadi və sosial funksiyaları ilə yeni iqtisadi sistemin tələblərinə tam cavab verir. Belə ki, bu təsərrüfatlar respublikanın ərzaq resurslarının yaradılmasında köməkçi mənbə qisimində çıxış edir. Yardımçı təsərrüfatlar, tam olmasa da kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsinə xidmət edir. Bu təsərrüfatlarda əmək ictimai faydalı əməyin xüsusi növü kimi dəyərləndirilməlidir.

Məhsul istehsalı və satışı sferasında şəxsi və ictimai maraqların birləşməsi şəxsi yardımçı təsərrüfatların bazar prinsiplərinə tam cavab verməsinə dəlalət edir. İqtisadiyyatın ictimai bölməsi kimi, şəxsi yardımçı təsərrüfatlar da ümumi bir problemin, respublika əhalisinin ərzaq məhsullarına olan tələbatının daxili istehsal hesabına təmin olması probleminin həllinə xidmət edir.

Şəxsi yardımçı təsərrüfatlar bütün dövlətlərdə, hətta kənd təsərrüfatı yüksək inkişafa nail olmuş ölkələrdə müvəffəqiyyətlə fəaliyyət göstərir. 1984-cü ilin məlumatına görə ABŞ-da 34 milyon (ümumi sayın) ev sahibinin tərəvəz, kartof, bostan bitkiləri və gül yetişdirmək üçün sahəsi olmuşdur. Bütövlükdə həyatyanı sahələr təzə halda istehlak olunan tərəvəzin 30, bostan bitkilərinin isə 20%-ə qədərini vermişdir. Belə sahələrin hər birində məhsul çıxımının həcmi orta hesabla 440 dollar təşkil etmişdir (5, s. 63)

Beləliklə, şəxsi yardımçı təsərrüfatların bir qisimini ailə- kəndli təsərrüfatlarına, digər bir qisimini isə ev təsərrüfatlarına birləşdirilməsi faktı ilə əlaqədar aşağıda qeyd olunmuş nəticəyə gəlirik.

1. Şəxsi yardımçı təsərrüfatları ev təsərrüfatları ilə eyniləşdirməyin yəni, ev təsərrüfatlarına daxil etməyin heç bir iqtisadi əsası yoxdur. Çünki şəxsi yardımçı təsərrüfat istehsal edən, ev təsərrüfatı isə istehlak edən təsərrüfat qruplarına daxildir. Bunların yerinə yetirdiyi əsas funksiyalar tamamilə fərqlidir.

2. Şəxsi yardımçı təsərrüfatı ailə-kəndli təsərrüfatı ilə o vaxt eyniləşdirmək olar ki, bunların hər ikisində eyni adda məhsullar istehsal edilmiş olsun. Belə təsərrüfatlar varsa, onları ailə-kəndli təsərrüfatları ilə birləşdirmək olar.

Bir qayda olaraq, yardımçı təsərrüfatlarda əsas istehsal sferasında (hazırda ailə-kəndli və ya kəndli fermer təsərrüfatında) istehsal olunmayan məhsullar istehsal olunur. Bitkiçilik məhsulları istehsal olunan ailə-kəndli və ya fərdi sahibkar təsərrüfatın şəxsi yardımçı təsərrüfatında əsas sahədə istehsal olunmayan bir neçə bitkiçilik məhsulu, daha çox çeşiddə heyvandarlıq məhsulları istehsal olunur və əksinə. Əsas istehsal sahəsində hətta 8-10 adda bitkiçilik və heyvandarlıq məhsulu istehsal olunmuş olsa belə, yardımçı təsərrüfatda əsas təsərrüfatda istehsal olunmayan hansısa bir məhsul istehsal olunursa, bu halda da yardımçı təsərrüfat öz statusunu saxlamış hesab olunmalıdır.

Kənd təsərrüfatı məhsulları istehsalı sahələrində fəaliyyət göstərən özəl təsərrüfat subyektlərindən bəhs edərkən "ev təsərrüfatları"nın istehsal edən təsərrüfatlar sırasında əks etdirilməsi məsələsinə də münasibət bildirməyi vacib hesab edirik.

İlk növbədə qeyd edək ki, ölkənin xalq təsərrüfatı bütöv vahid kimi baxılan çoxsaylı təsərrüfatların məcmusudur. Başqa sözlə desək, cəmiyyətdə mövcud olan istehsal və əmək sahələrinin məcmusu xalq təsərrüfatını təşkil edir. Xalq təsərrüfatı bütövlükdə maddi-istehsal (ictimai məhsul yaradan sahələr) və qeyri-maddi istehsal (ictimai məhsul istehsal olunmayan) sahələri əhatə edir. Elə bir təsərrüfat subyekti yoxdur ki, xalq təsərrüfatı sahələrindən təcrid olunmuş formada fəaliyyət göstərsin. Bununla belə, xalq təsərrüfatını təmsil edən çoxsaylı təsərrüfat subyektləri bir-birilə qarşılıqlı iqtisadi əlaqələrdə olmaqla müstəqil fəaliyyət göstərir. Ölkənin xalq təsərrüfatını təmsil edən çoxsaylı təsərrüfatları onların fəaliyyətini şərtləndirən məqsəd və bu məqsədə müvafiq yerinə yetirdikləri funksiyalar fərqləndirir. Eyni zamanda çoxsaylı təsərrüfatların yerinə yetirdikləri funksiyalar çoxşaxəli və rəngarəngdir.

Siyasi iqtisad elmi xalq təsərrüfatını təmsil edən çoxsaylı təsərrüfat subyektlərini üç qrupda təsnifləşdirir:

1. Dövlət təsərrüfatları. Buraya subyekti dövlət olan fərdi təsərrüfatlar daxildir.

2.Ümumi təsərrüfatlar. Buraya subyekti ictimai idarə olan fərdi təsərrüfatlar daxildir.

Bir qayda olaraq dövlət və ümumi təsərrüfatları ictimai təsərrüfatlar adlandırmaq qəbul olunmuşdur.

Ümumilikdə götürdükdə, ictimai təsərrüfatlar şəxsi təsərrüfatlardan onun başında duran subyektlə və ictimaiyyətə xidmət göstərilməsi sahəsində vəzifələrin müxtəlif olması ilə fərqlənirlər.

Bununla belə, həm ictimai, həm də fərdi təsərrüfatlarda həyata keçirilən fəaliyyətin iqtisadi təbiəti analojidir.

3. Fərdi təsərrüfatlar. Fərdi təsərrüfatlar həm sayına, həm də məhsul istehsalı, yerinə yetirilən işlər və xidmətlər göstərilməsi baxımından xalq təsərrüfatında üstün xüsusi çəkiyə malikdirlər. Fərdi təsərrüfatlar çoxsaylı vəzifələri reallaşdırırlar. Baxmayaraq ki, bu vəzifələr çoxşaxəlidir fərdi təsərrüfatları iki qrupda birləşdirmək qəbul olunmuşdur.

Fərdi təsərrüfatları təmsil edən çoxsaylı təsərrüfatların bir qisimi təsərrüfat nemətlərinin əldə olunmasını təşkil edir. Belə obyektlər "təsərrüfat nemətləri istehsal edən təsərrüfatlar" adlandırılır. "Əldə etmə" anlayışı olduqca geniş məna kəsb edir. Belə ki, "əldə etmə" dedikdə, təsərrüfat nemətlərinin əldə olunmasının mümkün olan bütün üsulları nəzərdə tutulur.

Fərdi təsərrüfatların digər qisimi sərəncamında olan təsərrüfat nemətlərilə bilavasitə özlərinin tələbatlarının təmin olunması məqsədini reallaşdırırlar. Fərdi təsərrüfatların bu qrupuna aid edilənlər istehlak təsərrüfatları və ya qəbul olunduğu kimi ev təsərrüfatları adlanır (13.s.151).

Ev təsərrüfatı mövcud təsərrüfat tiplərinin ilkinidir. Ev təsərrüfatının meydana gəlməsi tarixi insanların qəbilə halında yaşadığı dövrə təsadüf edir. O dövrdə ev təsərrüfatının əsas funksiyası müstəqil surətdə özünü qida ilə təmin edə bilməyən qəbilə üzvlərini (azyaşlı uşaqları, qocaları, xəstələri və s.) gündəlik qida məhsulları ilə təmin etməkdən ibarət olmuşdur. Qəbilənin əmək qabiliyyətli üzvlərinin böyük əksəriyyəti insanın qidalanması üçün yararlı olan təbiət nemətlərinin əldə olunmasını və qəbilənin məskunlaşdığı yerə gətirilməsini, qalan hissəsi isə gətirilmiş qida məhsullarını istehlaka yararlı hala salmaqla, bütövlükdə qəbiləni təmsil edənlərin istehlakını təmin etmişdir.

İlkin ictimai əmək bölgüsü qəbilə (ailə) təsərrüfatı çərçivəsində meydana gəlib desək, yanılmarıq. Qəbiləni təmsil edən əmək qabiliyyətli üzvlərindən kiminsə yabanı meyvələrin yığılması, kiminsə balıq tutmaq, ov etmək, primitiv əmək alətlərinin hazırlanması ilə, vəhşi heyvanların əhliləşdirilməsi və ya bitki toxumları yığmaqla və s. məşğul olması ev təsərrüfatı çərçivəsində əmək bölgüsünün təşəkkül tapmasına dəlalət edir.

Vahid xalq təsərrüfatı sistemini təşkil edən çoxsaylı təsərrüfat subyektlərinin formalaşmasının ilkin məkanı ev (qəbilə) təsərrüfatı olmuşdur. Belə ki, insan cəmiyyəti inkişaf etdikcə və ictimai əmək bölgüsü dərinləşdikcə ev təsərrüfatı çərçivəsində formalaşmış peşələr müstəqil sahələrə ayrılaraq müvafiq təsərrüfatların yaranmasını şərtləndirmişdir.

Ev təsərrüfatının yerinə yetirdiyi funksiyalar spesifik və çoxşaxəlidir.

İqtisadiyyatın elə bir sahəsi yoxdur ki, ev təsərrüfatından tədric olunmuş halda müstəqil fəaliyyət göstərsin. Ev təsərrüfatı geniş təkrar istehsalın mövcud manqalarının (istehsal, bölgü, gəlirlərin formalaşması və istifadəsi, istehlak) müəyyən kəsiyini əhatə edir.

Ev təsərrüfatı iqtisadiyyatın bütün sahələrini əks etdirir.

Ev təsərrüfatının istehsalla bağlılığı xalq təsərrüfatının bütün sahələrində iştirakı ilə deyil, bilavasitə ailə səviyyəsində istehsalın inkişafı ilə müəyyən olunur. Bu ev təsərrüfatının çərçivəsində ailə üzvlərinin iştirakı ilə bağlı olan spesifik istehsal sahəsidir.

Ev təsərrüfatı əsasən əmək qabiliyyətli ailə üzvlərinin məşğulluğunu, onların gəlirlərinin formalaşmasını və ailə büdcəsinə toplanmasını, həmçinin formalaşmış büdcə vəsaitinin ailə üzvlərinin istehlak tələbatının ödənilməsinə qənaətlə istifadə olunmasını təşkil və təmin edir. Ev təsərrüfatının digər mühüm funksiyası, sərəncamına daxil olan ərzaqların saxlanılması, onların emalı və ailə üzvlərinin qidalanması məqsədilə müxtəlif yeməklərin hazırlanmasıdır. Bu baxımdan ev təsərrüfatının yerinə yetirdiyi funksiya ictimai iaşə müəssisələrinin gündəlik yerinə yetirdiyi funksiya ilə eynidir.

Ev təsərrüfatının digər funksiyası nəslin davam etdirilməsidir. Əhalinin geniş təkrar istehsalı kimi səciyyələndirilən bu funksiya ilə ev təsərrüfatı cəmiyyətin inkişaf etdirilməsi və xalq təsərrüfatının əmək ehtiyatları ilə təmin olunması vəzifəsini yerinə yetirir.

Hazırda kənd yerlərində ev təsərrüfatlarının əksəriyyəti əmək qabiliyyətli ailə üzvlərinin əməyi əsasında yardımçı, ailə-kəndli və kəndli fermer (fərdi sahibkarlıq) təsərrüfatında bilavasitə kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olur. Ev təsərrüfatını təmsil edənlərin təşkil etdikləri bu istehsal forması ev təsərrüfatının əsas funksiyalarını dəyişdirmir, əksinə ailəyə gəlir gətirməklə onun funksiyalarının daha dolğun yerinə yetirilməsinə münbit şərait yaradır.

Ev təsərrüfatını təmsil edənlərin yardımçı, ailə-kəndli, kəndli fermer, eləcə də maddi istehsalın digər sahələrində maddi nemətlər istehsalı ilə məşğul olması birincinin (ev təsərrüfatının) istehsal edənlərin təsərrüfat kateqoriyasına daxil edilməsinə heç bir əsas vermir. Çünki, bu halda ailə üzvlərinin istehsalla məşğul olma məkanı bilavasitə ev təsərrüfatlarının çərçivəsində deyil, onun hüdudlarından kənardadır.

Bütün bunlar heç də o demək deyil ki, ev təsərrüfatı çərçivəsində heç bir məhsul istehsal olunmur. Hazırda ev təsərrüfatı çərçivəsində xalça, palaz, yun corab, əlcək və s. toxunur. Bu məhsullar həm ailənin tələbatının ödənilməsinə istifadə olunur, həm də bazarda satılır. Bu halda da ev təsərrüfatı istehsalçı təsərrüfat kateqoriyasına daxil edilmir. İqtisad elmi ev təsərrüfatı çərçivəsində həyata keçirilən bu istehsal fəaliyyətini "ev sənayesi" adlandırır.

Qeyd etdiklərimiz onu deməyə əsas verir ki, yardımçı və ailə-kəndli təsərrüfatlarını ev təsərrüfatı adlandırmağın heç bir iqtisadi əsası yoxdur.

Ev təsərrüfatı ilə ailə-kəndli və kəndlinin şəxsi yardımçı təsərrüfatı arasında yalnız bir oxşar cəhət vardır ki, o da hər üç təsərrüfat kateqoriyasında sərf olunan əməyin ictimai faydalı əmək olmasından ibarətdir.

Fərqlər isə müxtəlifdir.

1. Ev təsərrüfatı istehlak, ailə-kəndli təsərrüfatı və şəxsi yardımçı təsərrüfat isə istehsal edən təsərrüfatlar qrupuna daxildir, yəni ev təsərrüfatı sərəncamına daxil olan gəlirləri istifadə edir, ailə-kəndli və yardımçı təsərrüfat isə gəlirləri istehsal edir.
2. İqtisadi faydalılıq baxımından ev təsərrüfatı xərclərə qənaət ilə, ailə-kəndli və yardımçı təsərrüfat isə gəlirlərin səviyyəsi ilə ölçülür.

3. Ev təsərrüfatında sərf olunan ictimai faydalı əməyin əksəriyyəti (mütəxəssislərin qiymətləndirilməsinə istinadən 60-70%-i) qeyri-məhsuldar xidmətlər istehsalına (ailə üzvlərinin gündəlik tələbatlarının ödənilməsinə), ailə-kəndli və yardımçı təsərrüfatlarda isə məhsulların istehsalına istifadə olunur.
4. Ev təsərrüfatında xidmətlərə sərf olunan əmək qeyri-məhsuldar ailə-kəndli və yardımçı təsərrüfatlarda sərf olunan əmək məhsuldar əməkdir.
5. Ev təsərrüfatlarında göstərilən xidmətlərin dəyəri məcmu ictimai məhsulun dəyərinə daxil edilmir, ailə-kəndli və yardımçı təsərrüfatlarda yaradılan bütün məhsulların dəyəri isə birbaşa və ya dolayısı ilə məcmu ictimai məhsulun dəyərinə daxil edilir və s.

## ƏDƏBİYYAT

**1.**Sahibkarlıq fəaliyyəti haqqında ARQ, Bakı, 15 dekabr 1992-ci il.

**2.** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları (www.stat.gov.az)

**3.** Alıyev İ.H. "Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri". Bakı, "Elm", 2008, 391 s.

**4.** Azərbaycanın kənd təsərrüfatı DSK-nin statistik məcmuəsi, Bakı, 2006, 294 s.

**5.** Конигин А.А. Фермерское хозяйство США. М. 1989, 207 с.

**6.** Azərbaycanın kənd təsərrüfatı DSK-nin statistik məcmuəsi. Bakı, 9 №–li kiçik müəssisə. 1912, 616 s.

**7.** Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri. DSK-nin statistik məcmuəsi. Bakı, 9 №–li kiçik müəssisə. 2010, 375 s.

**8.** Чаянов А.В. Организация крестьянского хозяйства. М. 1925, 214 с.

**9.** Ailə-kəndli təsərrüfatları haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 14 iyun, 2005-ci il.

**10.** Aqrar islahatların gedişi haqqında DSK-nin bülletenləri. 1996-2006-cı illər.

**11.** Карль Бюхерь – Возникновение народного хозяйства. С.Петербург, 1907, 195 с.

**12.** Vəliyev A.H. "Torpaq mülkiyyət münasibətlərinin tənzimlənməsinin əsasları" Bakı, "Nurlar", 2005, 177 s. 13. Мануилов А.А. – Политическая экономия. М. 1919, 301 с.